Adımız məfkurəmizdir

27 dekabr 2022 – 9 yanvar 2023

Türküstan

www.turkustan.az

# Qayaların arasından cənnətə gedən yol – Horma kanyonu

## *Turizm cənnəti Qərbi Qara dəniz*

Gülşən Hacıyeva

III yazı

***Türkiyənin turizm cənnəti olduğunu bilməyən az insan olsa da, Anadolunun kəşf edilməmiş hələ çox yerləri var. Yüksək keyfiyyət, xidmətinə görə turizmin bütün sahələrində ilk sıralarda yer alan Türkiyə turistlərin ən çox seçdiyi ölkələrdən birinə çevrilib. Qara dəniz Anadolunun sirli tarixi məkanları ilə zəngin bölgələrindəndir. Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Qərbi Qara dənizi tanıtmaq məqsədilə gerçəkləşdirdiyi layihə çərçivəsində Türk dövlətlərindən bir qrup jurnalistlə bölgəni ziyarət etdik.***

Sonuncu dayanacağımız Kastamonu vilayətinin Pınarbaşı rayonunda yerləşən Horma kanyonudur.

Rayon mərkəzindən 3 km uzaqlıqda yerləşən, Küre dağlarının arasından axan Zarı çayının üzərindəki Horma Kanyonuna dünyanın kəşfedilməmiş möcüzələrindən biri desək, yanılmarıq.

Kastamonu-Bartın vilayətləri arasındakı Küre dağları 2000-ci ildə Milli park statusu alıb. Milli park Valla Kanyonu, Ilqarini mağarası, Ilıca şəlaləsi və Horma kanyonunu əhatə edir.

Təbiətsevərlərin böyük zövq alacağı Milli parkın hər qarışı görənləri məst edir. Əsrarəngiz mənzərəsi gözləri, bol oksigenli havası ciyərləri, çayın şırıltısı, quşların səsi isə qulağı rahatladır. Parkın girişindən içəri daxil olduqdan qısa müddət sonra insanın əhvalı müsbət yöndə dəyişməyə başlayır. Yolun ortasında bir anlıq dayanıb, gördüklərinin gerçəkliyinə əmin olmaq istəyirsən. Sanki sehrli bir aləmə düşmüsən, cənnətin tam ortasındasan. Bu gözəlliyi, ahəngi sadəcə təbiət yarada bilər...

İki dağın arasından axan Zarı çayının üzərindəki 3 km-lik yol, yolun sonundakı Ilıca şəlaləsinin gözəlliyi isə sözlə tərif edilməyəcək qədər insanı təsirinə alır.

Turistlərin Horma kanyonundan Ilıca şəlaləsinə qədərki 3 km-lik məsafəni daha zövq və sövqlə qət etməsi üçün qayaların arasından dəmir konstuksiyalar üzərində taxta yol qurașdırılıb. Bu yolun çəkilişi üç il davam edib. Bələdçilərin bildirdiyinə görə, avtomobillə keçid mümkün olmadığından yolun tikintisi üçün lazım olan tonlarla dəmir və taxta qucaqda daşınıb. Sözün həqiqi mənasında bu yol addım-addım tikilib.

***Qara dəniz bölgəsinə xas olan yaşıllıq Qərbi Qara dənizdə də hakimdir. Hər addımda qədim tarixin izləri olan bölgə əsrarəngiz təbiəti ilə də turistlərin vaz keçilməz məkanıdır. Təbiəti doya-doya seyr etmək, gözəllikləri yaşamaq, tarixə səyahət etmək, ən qədim mədəniyyətlərlə tanış olmaq istəyən hər kəsin yolunu Qərbi Qara dənizdən salması lazımdır...***

SON

*Turistlərin Horma kanyonundan Ilıca şəlaləsinə qədərki 3 km-lik məsafəni daha zövq və sövqlə qət etməsi üçün qayaların arasından dəmir konstuksiyalar üzərində taxta yol quraşdırılıb. Bu yolun çəkilişi üç il davam edib. Bələdçilərin bildirdiyinə görə, avtomobillə keçid mümkün olmadığından yolun tikintisi üçün lazım olan tonlarla dəmir və taxta qucaqda daşınıb. Sözün həqiqi mənasında bu yol addım-addım tikilib...*







*Təbiətsevərlərin böyük zövq alacağı Milli parkın hər qarışı görənləri məst edir. Əsrarəngiz mənzərəsi gözləri, bol oksigenli havası ciyərləri, çayın şırıltısı, quşların səsi isə qulağı rahatladır. Parkın girişindən içəri daxil olduqdan qısa müddət sonra insanın əhvalı müsbət yöndə dəyişməyə başlayır. Yolun ortasında bir anlıq dayanıb, gördüklərinin gerçəkliyinə əmin olmaq istəyirsən. Sanki sehrli bir aləmə düşmüsən, cənnətin tam ortasındasan. Bu gözəlliyi, ahəngi sadəcə təbiət yarada bilər...*



Oxu, oxut, abunə ol!